# MÜQƏDDƏS YOLUN YOLÇUSU

## VƏ YA APREL DÖYÜŞLƏRİNİN TANKÇISI



*Oqtay Abbas,*
*ADU-nun dosenti,*
*yazıçı-şair*

**(əvvəli ötən sayımızda)**

**Bunu nifrətə bənzətmək olardı. Amma nifrətdən daha fərqli hiss olduğu da aydınca görünürdü. Düşmən düşməndir, bunu başa düşmək olur. Amma özünü dost kimi qələmə vermiş adamın düşmənə çevrilməsi, sənin qanına susaması, əzazilliyi ilə öyünməsi daha gizli mətləblərdən xəbər verirdi. Bu idi Mehdinin ürəyindəki alovu, torpaq məhəbbətini sönməyə qoymayan.**

Müharibə sənətindən, hərb işlərindən başı çıxanlar yaxşı bilirlər: Tankçının başlıca məqsədi düşmən qüvvələrinə ağır zərbələr vurub onları sarsıtmaq olsa da, digər daha vacib bir tapşırıq da onun üzərinə düşür. Mehdi bu barədə danışanda belə dedi: Döyüş meydanını əsgər üçün daha təhlükəsiz etmək, əsgərlərimizin itkisiz irəliləməsinə nail olmaq tankçının vəzifələrindəndir.-Sözünə davam etdi:- Bu mühüm tapşırıqları yerinə yetirmək isə təkcə vəzifənin dərk edilməsindən asılı deyil. Tankçı döyüşdə düzgün mövqe seçməyi, döyüş yoldaşlarının hərəkətlərini izləməyi, situasiyadan asılı olaraq uyğun mövqe seçməyi, optimal qərar qəbul etməyi bacarmalıdır. Əks halda tək özü zərər görməyəcək, piyada qoşunlarının itgisin qarşısı da alınmış olacaqdır...

Mehdi bütün bunları yaxşı bilir. Təlim-Tədris Mərkəzində öyrədilən nəzəri biliklərin əsl döyüş şəraitinə bənzəyən süni yaradılmış "mövqelərdə" tətbiqini öyrənmişdi. Bütün bunlar onda döyüş yoldaşları ilə bağlı bir qürur yaradan məsuliyyət hissi formalaşdırılmışdı. Müharibə, hərb nə qədər təhlükəli bir şey olsa da, sevincli anları da az olmur. Mehdi özü bu barədə belə deyir: Özünün düşmənə qarşı vuruşunun uğurlu nəticələrini görmək adamda öz qüvvəsinə inamı artırır. Ən maraqlı və fərəh yaradıcı hallar isə düşmənin bizim ata-baba torpaqlarımızda qurduqları səngərlərin necə boşaldığını görməkdi: Torpaq sənin, torpaqdakı səngər düşmənin. Bu səngərlərdən sənə, sənin döyüş dostlarına güllə atılır.

### *Aprel döyüşlərinin tankçısı*

**Aprel döyüşlərinə bu baxımdan yanaşanda həm də aydın olur ki, bu döyüşlər əsgərlərimizdə, zabitlərimizdə özlərinə olanı inamı artırdı, düşmən ordusu ilə bağlı süni şəkildə yaradılmış mifi darmadağın etdi. Hər bir aprel döyüşçüsü əsarətdə olan, indi azad edilən torpaqlarımıza qədəm basdıqca sanki gözlərinə işıq, dizlərinə sonsuz bir qüvvə, təpər gəlirdi.**

Mehdi, bir qədər tərəddüdlə də olsa da, həmin hissi necə yaşadığını da söylədi: Bir an əvvəl düşmən tapdağında olan torpaqlarımız qarış-qarış azad olunur, ordumuz irəliləyir. Daha doğrusu, ordumuz irəlilədikcə torpaqlarımız azad olur. Bir qədər inanılmaz görünür. Amma həqiqətdir, bu hissi özüm yaşamışam. Düşmənin qoyub qaçdığı torpağın hərarətini tankın içərisindən də hiss etmək olurmuş. Bu hərarət yandırmırdı, ürəklərdəki alovun daha da güclənməsinə səbəb olurdu.Aprel axı, gül-çiçək aylarındandır, babamız Füzulinin yazdığı kimi, "Fəsli-bahardır".

Əlbəttə, yazıda təkcə reallıqlar, olanlar təsvir edilmir. Müəllif nə qədər istəməssə də, arada bir öz arzularını da qələmə alır, olmuşlar kimi təqdim edir. Bunu yaxşı bildiyimdən çalışdım ki, yazıda ancaq və ya heç olmasa daha çox Mehdinin fikirlərinə yer verim. Bu döyüşlərin qasırğasından keçmiş Mehdinin. İndi yazını oxuduqca aydın görürəm ki, səhv etməmişəm. Mən başqa Aprel döyüşçüləri ilə də söbət etmiş, bəziləri haqqında mətbuatda yazılar dərc etdirmişəm. Sözümün canı var: Bu döyüşçüləri birləşdirən ortaq cəhətlər məni həm təəccübləndirib, həm də düşünməyə məcbur edib. Vətən sevgisi, Vətənə qarşı yönəlmiş ən kiçik amilə qarşı böyük nifrət bu döyüşçülər üçün ortaq olan başlıca xüsusiyyətlərdəndir.



Digər haqqında danışılması vacib olan cəhətlərdən biri komandirlərin döyüşçülərə münasibəti məsələsidir. Nə gizlədək, bu münasibətləri mənfi çalarlarda təsvir edən məlumatlara tanış olanda, yazıları oxuyanda özümdən asılı olmayaraq ürəyimi tutmuşam. Amma indi, Aprel döyüşçüləri ilə, elə Mehdinin özü üzüz olanda, söhbətlərini dinləyəndə komandir-əsgər-döyüşçü münasibətləri ilə bağlı mənfi məzmunlu məlumatlrın reallığa uyğun gəlmədiyinə əmin oluruam. Əlbəttə, bütün yazılar barədə eyni fikirdə deyiləm. Həqiqəti çatdırmaq istəyi ilə yazılmış yazılar da az olmayıb. Amma, necə deyərələr, dostu çətin anlarda sınayarlar. Çətin anlar isə həm komandirlər, həm də əsgərlərimiz üçün Aprel döyüşləri oldu. Bu döyüşlər isə həmin münasibətlərin həqiqətdə, çoxluqda necə olması barədə də fikirlərə bir duruluq, aydınlıq gətirdi.

**Mehdinin dediklərindən: Təsəvvürünüzə gətirin ki, komandirin əsgərindən ötrü özünü ölümə atdığının şahidi olmuşam. Döyüşdə sanki komandir-əsgər arasında olan sərhəd götürülür. Hamı Vətən fədaisinə dönür. Komandir də döyüşür, özü də ön sıralarda. Sadəcə olaraq, o həm də düzgün yol göstərmək məsuliyyətini də unudmamalıdır. Düzdür, tankda bu münasibət özünü bir qədər çətin biruzə verir. Başlıca əlaqə ekipaj üzvlərinin birliyindən, yoldaşlarına münasibətindən asılı olur. Amma axı, tankçı da tankdan çıxandan sonra ilk növbədə digər döyüşçülərlə maraqlanır, onlarla söhbətləşir. İnanın, hamı eyni fikirdə idi: Komandirlərdən razılıq, döyüş yoldaşlarının bir-birlərinə sevgisi əsasında qurulmuş qayğı!**

### *Mehdi danışır,*

o odlu-alovlu, amma şərəfli günləri yada salır. Maraqlıdır, özü barədə demək olar ki, susur. Mənsə onun döyüş yolunu təkcə özündən öyrənmədiyimdən bilirəm ki, Mehdi Aprelin şərəfli günlərində zabit kimi döyüşüb. Zabit olmaq, özü də müharibə şəraitində döyüşçü olmaq iki qat məsuliyyət deməkdir. Mehdi özü bunu yaxşı bilir. Bilir ki, indi o, tabeliyində olan əsgərlərin taleyi üçün məsuliyyət daşıyır. Fəaliyyət elə quqrulmalıdır ki, həm qələbə təmin edilsin, həm də itki minimum olsun. Olmasa, daha yaxşı. Amma müharibədə bunsuz keçinmək mümükün deyil. Hər halda, Mehdi əlindən gələni edib ki, əsgərləri Aprel döyüşlərindəki qələbənin sevincini dada bilsinlər. Bəlkə elə bunun nəticəsidir ki, M.Pircanov döyüşdə ciddi şəkildə yaralansa da, bunu uzun müddət gizlətməyə çalışıb.

Və bir müddət buna nail olub. Mehdi deyir: İradə hərbçiyə ən vacib olan keyfiyyətlərdəndir. Situasiya nə qədər dəqiq qiymətləndirilsə də, döyüşlərin gedişində müxtəlif vəziyyətlər ortaya çıxır. Yaralanmaq da belələrindəndir. Ağrını hiss edirsən, amma xüsusilə başqaları üçün məsuliyyət dözmək tələb edir. Aprel döyüşlərində tibbi xidmət yüksək səviyyədə təşkil olunmuşdu. Həkimlər, sanitarlar, demək olar ki, bizimlə çiyin-çiyinə idilər. Yaraladığımı hiss etdirsəydim, anında məni döyüş meydanından uzaqlaşdıracaqlarını bilirdim. Digər tərəfdən də adam döyüşlərin nəticəsini başqalarından eşitmək istəmir. Çalışır ki, qələbə onun iştirakı ilə olsun. Qələbə hissini şəxsən yaşasın. Belə də oldu. Döyüşlər bitənə qədər ön sıralarda olan Mehdi bu hissləri də özünün istədiyi kimi yaşadı.

Mehdi indi də döyüş bölgələrinin birində tankçı zabit kimi fəaliyyət göstərir. Hərdən olub keçənləri yada salır. Tez-tez görüşməyə vaxt tapmasa da, döyüş yoldaşları ilə-Cavid Vəliyevlə, Məhəmməd Kərimli ilə, Zamir İsmayılovla, Cabir Tarverdiyevlə, Cavad Cavadovla əlaqə saxlayır, xəbər tutur. Təzə əsgərlərə,Vüsala Qiyasa, Amilə və başqalarına onlardan söhbət açır, döyüşlərdəki şücaətlərindən danışır. Təbii ki döyüş hazırlığı da öz yerində

Mehdi Pircanovun döyüş xidmətləri Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanla, silahlı qüvvələrimizin yaranmasının 90, 95 və 100 illiyi ilə bağlı medallarla, qüsursuz xidmətə görə 3-cü və 2-ci dərəcəli medallarla təltif olunub. 2016-cı ildə Aprel döyüşlərindəki igidlikləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə 1-ci dərəcəli medala layiq görülüb. Bu təltiflərin hər biri ona əzizdir. Amma Ali Baş Komandanın imzası ilə təltif olunduğu 1-ci dərəcəli medalın Mehdinin həyatında xüsusi yeri var.

**Bəli, vaxtilə Mehdi özü müharibədə igidliklər göstərmiş əsgərlərimizlə, hərbi qulluqçularımızla fəxr edir, onların yolunu davam etdirmək istəyirdi. İndi o, özü bu yolun fədakar yolçusudur. Tanıyanlar onunla fəxr edirlər. Biz də Mehdiyə bu müqəddəs yolda daha böyük uğurlar arzulayırıq.**